# Cəsarətli jurnalist

## Tanınmış jurnalist Şəmsiyyə Kərimovanın 60 illik yubileyi keçirildi



Dünən Beynəlxalq Mətbuat Mərkəzində Əməkdar jurnalist, "Yeni təfəkkür" qəzetinin baş redaktoru Şəmsiyyə Kərimovanın anadan olmasının 60 illik yubileyi təntənə ilə qeyd edildi. Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə keçirilən tədbirdə, eyni zamanda, yubilyarın "Şəmsiyyənin kitabı" adlı kitabı da oxuculara təqdim edildi.

Tədbiri giriş sözü ilə Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov açaraq Şəmsiyyə Kərimovanın ötən əsrin 70-ci illərindən bu dövrədək olan jurnalistlik fəaliyyətindən danışdı. Eyni zamanda qeyd etdi ki, Şəmsiyyə Kərimova jurnalistikaya gəlməzdən öncə əmək cəbhəsində də fərqlənərək "Lenin Komsomolu Mükafatı"na layiq görülüb. Ona bu mükafat Saatlı rayonunda mexanizator işlədiyi zaman çox pambıq yığdığı üçün verilibdir: "Şəmsiyyə xanım hansı sahədə işləyibsə orda daim fərqlənib- nümunə göstərib. Harda cəsarətli addım atmaq lazım olubsa, o addımı məhz Şəmsiyyə xanım atıb."

Tədbirdə qocaman jurnalist, Azərbaycan Mətbuat Şurasının Ahıl Jurnalistlər Birliyinin sədri Yusif Kərimov çıxış edərək Şəmsiyyə Kərimovanın ilk dəfə jurnalist kimi əmək fəaliyyətinə başladığı illərdən söhbət açdı. Eyni zamanda tanınmış jurnalistlərdən Telli Pənahqızı, Flora Xəlilova, Məzahir Süleymanzadə həmkarları haqqında xatirələrini bölüşdülər.

Milli Məclisin deputatı Tahir Rzayev də yubilyarı hələ sovet hakimiyyəti illərindən tanıdığını, onun jurnalistika fəaliyyətini daim izlədiyini bildirdi. Onun sözlərinə görə, jurnalistə lazım olan obyektivlik və cəsarətlilik prinsiplərini Şəmsiyyə Kərimovanın yazılarında həmişə hiss edibdir.

Tədbirdə Əflatun Amaşov yubilyara Azərbaycan Mətbuat Şurasının xüsusi diplomunu təqdim etdi.

Sonda yubilyar tədbir iştirakçılarına öz xoş arzularını bildirməklə onlara minnətdarlığını ifadə etdi.

Biz də "İki sahil" qəzetinin kollektivi olaraq vaxtilə redaksiyamızda  işləmiş həmkarımızı təbrik edir, ona fəaliyyətində yeni uğurlar arzulayırıq.

**Elçin Zaman, "İki sahil"**